Qəzet 1931-ci ilin aprelindən çıxır

# DƏNİZ

1 may 2015-ci il
№ 15-16 (8973)
Qiymət
38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti

Bu il də dövlət investisiya proqramı kifayət qədər genişdir. Bu proqramda əsas infrastruktur layihələri öz əksini tapıbdır və bu layihələrin icrası nəticəsində ölkəmizin inkişafı üçün daha da yaxşı şərait yaradılacaq, insanların rahatlığı, eyni zamanda, biznes mühitinin yaxşılaşdırılması üçün infrastruktur layihələri əlbəttə ki, önəmli yer tutur.

Bizim islahatlar aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görübdür. İldən-ilə bizim yerimiz yaxşılaşır. Biz daha bir pillə qalxmışıq və dünya miqyasında rəqabətqabiliyyətliliyə görə 38-ci yeri tutmaq hesab edirəm ki, gənc dövlət üçün böyük nailiyyətdir və bu yeri biz neftə, qaza görə yox, məhz düşünülmüş islahatlara görə qazanmışıq. Bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir, milli maraqlar və daxili resurslar üzərində qurulubdur. Ona görə Azərbaycanın xarici dövlət borcu çox aşağı səviyyədədir. Dünya miqyasında biz bu göstəriciyə görə ən qabaqcıl yerdəyik. Bu, bizə iqtisadi müstəqillik verir, eyni zamanda, biz Azərbaycana istənilən məbləğdə xarici bazarlardan maliyyə resursları da cəlb edə bilərik. Sadəcə olaraq, hesab edirəm ki, buna böyük ehtiyac yoxdur. Təbii ki, müəyyən mənada biz bunu edirik. Amma daha çox öz işlərimizi, ölkədə görülən işləri daxili imkanlar hesabına təmin edirik.

Ölkəmizin beynəlxalq nüfuzu gündən-günə artır. Azərbaycan dünya birliyinin etibarlı, dəyərli üzvüdür. Bütün həmkarlarımla keçirilən görüşlərdə Azərbaycana böyük hörmət müşahidə olunur. Azərbaycanda gedən işlər dünya



birliyi tərəfindən izlənilir və böyük təqdirlə qarşılanır. Bizim xarici siyasətimiz çox fəaldır, çevikdir, milli maraqlar üzərində qurulubdur və milli maraqlar bizim üçün ən prioritet məsələdir. Yəqin ki, buna görə Azərbaycan son illər ərzində bütün bölgədə yaşanan böhranlardan, əgər belə demək mümkündürsə, itkisiz çıxıbdır və şərəflə öz siyasətini aparır. Biz heç kimin təhriki ilə addımlar atmırıq, düşünülmüş addımlar atırıq. Əgər o addımlar milli maraqlara uyğundursa biz bunu edirik, deyilsə biz bunu etmirik. Elə bir qüvvə yoxdur ki, bizi nəyəsə məcbur edə bilsin, yaxud da bizi hansısa kampaniyalara cəlb etsin ki, bu da bizim maraqlarımıza uyğun olmasın. Ona görə bu mövqe, eyni zamanda, hər bir məsələ ilə bağlı prinsipial mövqeyimiz təbii olaraq bizə böyük hörmət qazandırdı. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə, gözəl imicə malik olan ölkədir. Mən dünya birliyi deyəndə bütün ölkələri nəzərdə tuturam. Çünki dünya birliyi hansısa bir təşkilat deyil. Dünya birliyi bütün ölkələrdir. Bütün ölkələr BMT-də təmsil olunur və bilirsiniz ki, bizim BMT-dəki mövqelərimiz çox güclüdür. Əgər belə olmasaydı, bir neçə il bundan əvvəl 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi.

Azərbaycan öz dini, milli, mənəvi dəyərlərinə sadiq olaraq müasirlik yolu ilə uğurla, inamla gedir. Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətləri qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq, dostluq və tərəfdaşlıq prinsipləri üzərində qurmuşuq və bizə göstərilən hörmət, əlbəttə ki, bizi sevindirir. Eyni zamanda, bu, bir daha göstərir ki, bizim xarici siyasətimiz qüsursuzdur. Mən bunu açıq bəyan etmək istəyirəm. Biz heç bir ölkə ilə əlaqələrimizi pozmamışıq. Heç bir ölkə ilə bizim aramızda heç bir gərginlik yoxdur. Əksinə, son illər ərzində biz nə qədər dost qazanmışıq, nə qədər çox ölkələr bizimlə əməkdaşlıq etmək istəyir. Dövlət, hökumət başçılarının Azərbaycana səfərləri, beynəlxalq tədbirlərdə mənim iştirakım bunu bir daha göstərir. Azərbaycan bu gün dünya miqyasında öz güclü yerini tutmuş ölkədir. Ölkəmizin dünya miqyasında hörməti getdikcə artır.

*(Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən)*

# Qibləgahı Azərbaycan idi

**Ümummilli Lider kimi şərəfli bir ada sahib olmaq üçün ən azı bütün şüurlu həyatını xalqa həsr etməyi bacarmalısan. Xalqın ağrı-acılarını özününkü bilməklə, onun qəlbində özünə yer tapmağa qadir olmalısan...**

Belə şəxsiyyətləri tarix yüz ildə, iki yüz ildə bir dəfə yetirir. Tarixin yaratdığı nadir dühalardan biri də Azərbaycan xalqının böyük oğlu, müdrikliyi, uzaqgörənliyi, cəsarəti və qətiyyəti ilə bütün dünyanı heyrətə gətirən Heydər Əliyev idi. "Mən harada yaşayıramsa-yaşayım, istər Moskvada, dövlət rəhbərliyinin imkan verdiyi yüksək şəraitdə, istərsə də Naxçıvanda, kasıb bir daxmada, daim Azərbaycanı düşünmüşəm, Azərbaycanla yaşamışam" - deyən dahi rəhbərin mənalı ömrünün bir anını da xalqdan ayrı təsəvvür etmək mümkün deyil. O, xalqı üçün doğulmuşdu. Və bütün həyatını da xalqının, ölkəsinin inkişafına, dünya dövlətləri arasında layiqli yer tutmasına həsr etdi. Həyatının hər anı siyasətçilərə, dövlət xadimlərinə, sinəsi Vətən sevgisi ilə dolu insanlara örnəkdir.



Tarixdə hakimiyyətə gəlişi bayram edilən dövlət xadimləri çox azdır. 1993-cü ilin iyun ayında xalqın tələbi ilə hakimiyyətə qayıdışı hələ böyük öndərin sağlığında əziz bayram kimi qeyd edilirdi.

Ulu Öndər sovetlər dövründə Azərbaycana rəhbər təyin ediləndə iqtisadi cəhətdən geridə qalmış, aqrar respublika sayılan Azərbaycanı keçmiş ittifaqın ən qabaqcıl respublikasına çevirdi. Həmin illərdə Azərbaycan özü boyda tikinti meydançasına bənzəyirdi. Respublikanın hər yerində sənaye müəssisələri, sosial obyektlər, müasir yaşayış evləri... inşa olunurdu.

**...Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi bəlkə də bir qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm.**

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider.**

*(Davamı 2-ci səhifədə)*

# Qibləgahı Azərbaycan idi

(Əvvəli 1-ci səhifədə)

1993-cü ilin iyun hadisələrini unutmasaq da, bu barədə silsilə yazılar yazılsa da, həmin dövrdəki ictimai-siyasi hadisələrin tam təhlil olunması, ən xırda detallarına kimi araşdırılıb xalqa çatdırılması yenə vacib məsələ kimi gündəmdədir. Qardaş qardaşa silah qaldırmaq həddinə gəlib çatmışdı. Ölkə dağılmaq, parçalanmaq ərəfəsində idi. Bir yandan da namərd ermənilər torpaqlarımızda at oynadırdılar. Bir sözlə, hələ kövrək addımlarını atan respublikamızın müstəqilliyi ciddi təhlükə qarşısında idi... Belə bir vaxtda hər siyasətçi hakimiyyətə gəlməyə, çiynini bu ağırlıqda yükün və məsuliyyətin altına verməyə cəsarət etməzdi. Niyə? Çünki təkcə respublikamızda deyil, bütün dünyada Azərbaycanın bu bəladan xilası qeyri-mümkün hesab edilirdi. Avropa Şurasının sabiq baş katibi Valter Şvimmerin dediyi kimi: "Prezident Heydər Əliyev ilkin keçid dövrünün çətin zamanlarında Azərbaycanın sükanı arxasında durdu. O, ölkəni uzaqgörənliyi, nüfuzu və dövlət xadimi məharəti ilə irəli apardı.O, xalqının böyük kütlələrinin dəstəyini və sevgisini qazandı."

Bəli, ürəyi Vətən eşqi ilə döyünən, azərbaycanlı olması ilə fəxr edən, xalqını, millətini dünyalar qədər sevən dahi şəxsiyyət Heydər Əliyev ölkəmizin belə ağır günündə seyrçi kimi qalmadı. Xalqının səsinə səs verdi və yaşının müdriklik çağında Azərbaycanımızı bu bəladan xilas etmək üçün çox ağır və çətin bir işi - xilaskarlıq missiyasını öz üzərinə götürdü...



Sonralar bir çox dövlət xadimləri, o cümlədən keçmiş SSRİ-nin birinci və sonuncu prezidenti, Azərbaycan xalqının qatı düşməni Mixail Qorbaçov da acizanə etiraf edirdi ki, Heydər Əliyev həlli mümkün olmayan tarixi bir problemi - Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. İllər keçdi, bu tarixi həqiqəti istər respublika daxilində, istərsə də yaxın-uzaq dövrlərdə Heydər Əliyevi istəyənlər də, ona paxıllıq edənlər də, hətta ermənilər də etiraf etməli oldular.

Silahlı dəstələri zərərsizləşdirmək, vətəndaş həmrəyliyi yaratmaq, sabitliyə nail olmaq, adamların itirilmiş ümidlərini özünə qaytarmaq... Bu, böyük xilaskarlıq siyasının ancaq başlanğıcı idi. Dağıdılmış iqtisadiyyatı bərpa etmək, dövlətçiliyin əsasını qoymaq, xarici sərmayələrin Azərbaycana axınını təmin etmək... bütün bunlarsız xilaskarlıq işi natamam görünərdi.

**Müasir Azərbaycan Heydər Əliyevin əsəridir. Biz hamımız - bütün Azərbaycan xalqı gərək bundan sonra onun gördüyü işləri davam etdirək, genişləndirək, onun yolu ilə Azərbaycanı gələcəyə aparaq.**
**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Böyük xilaskarımız sözün həqiqi mənasında qısa zaman kəsiyində çox əzəmətli, möhtəşəm işlər gördü. Hakimiyyətə qayıdışından bir il sonra bütün Avropanı, ABŞ-ı inandıra bildi ki, Azərbaycan hər bir dövlət üçün etibarlı tərəfdaşdır. Nəticədə, 1994-cü ilin sentyabrında dünyanın nəhəng dövlətlərinin aparıcı şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Bu, yalnız və yalnız Heydər Əliyevin gərgin əməyi sayəsində mümkün oldu. Müharibə şəraitində olan bir ölkəyə investisiya qoymaq tarixdə görünməmiş bir işdir. Üstəlik, yaxın qonşularımızın bu müqavilənin imzalanmasını istəməməsi əlavə çətinliklər yaradırdı. Heç də təsadüfi deyil ki, "Əsrin müqaviləsi" imzalanandan bir qədər sonra Ümummilli Liderimizi fiziki cəhətdən məhv etmək üçün 1994-cü ilin oktyabr və1995-ci ilin martında respublikada qiyamlar törədildi...

Cəbhədə atəşkəsə nail olmaq, Tarixi İpək yolunun bərpası və onun mərkəzi kimi Azərbaycanın seçilməsi, TRASEKA proqramı çərçivəsində Bakıda Beynəlxalq konfransın keçirilməsi respublikamızda iqtisadiyyatın inkişafı naminə gerçəkləşdirilən ən mühüm layihələr idi...

Ulu Öndərin respublikaya rəhbərlik etdiyi otuz ildən artıq bir dövrdə millətin böyük bir nəslinin təfəkkürünün, əxlaq və mənəviyyatının formalaşmasında əsrlərə bərabər iş görüldü. Bugün müstəqil Azərbaycanda demokratiyanın genişlənməsi, iqtisadiyyatımızın yeni inkişaf mərhələsinə qədəm qoyması ən əvvəl Ulu Öndərimizin xidmətidir. Ulu Öndər hakimiyyətə qayıdışı ilə təkcə Azərbaycanı məhv olmaqdan xilas etmədi, həm də onun onilliklərə bərabər inkişaf strategiyasını müəyyənləşdirdi. Özündən sonra dövlətçilikdə və idarəetmədə Heydər Əliyev məktəbi qoyub getdi ki, bu gün böyük xilaskarın müqəddəs işlərini həmin məktəbin ən layiqli yetirməsi olan Prezidentimiz İlham Əliyev uğurla davam etdirir.

**Əbil ƏHMƏDOV,**
**Dəniz Nəqliyyatı Donanmasının kapitanı**

# Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi



**Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva işıqlı amalların, nəcib duyğuların təcəssüm tapdığı bir ömür yaşayıb.**

Qədim Naxçıvanın Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanım çox zəngin və mənalı ömür yolu keçib. Zərifə xanım görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Atasının ömür yolu onun üçün əsl həyat məktəbi olub.

Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin, Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. O, Ulu Öndərimizə mənəvi dayaq və arxa idi.

Akademik Zərifə xanım Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Tibb Universitetini bitirəndən sonra Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsil alıb. 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Həkimləri Təkmilləşdirmə İnstitutunda elmi işçi kimi əmək fəaliyyətinə başlayıb və bütün ömrünü oftalmologiyaya həsr edib. 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilib.

Bütün həyatı boyu ona pənah gətirənlərin gözlərinə şəfa verən Zərifə xanım Əliyevanın alim kimi xidmətlərində bir məqam diqqəti xüsusilə çəkir. O, malyariya və traxomaya qarşı fədakarlıqla mübarizə aparan atası Əziz Əliyevin yolunu uğurla davam etdirib, oftalmologiya elminə çox böyük töhfələr verib. Zərifə Əliyeva gözün zədələnməsinin öyrənilməsi və profilaktikası sahəsindəki bir sıra orijinal kəşflərinə görə SSRİ Tibb Elmlər Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülüb. O, keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim idi.

Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olub, "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında tarixi sözlər deyiblər. Dünya şöhrətli oftalmoloq, akademik A. Nesterov deyib: " Zərifə Əliyeva çox ağıllı



insan və böyük professional idi. Mən onu bu sahənin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi."

Akademik N. Puçkovskaya "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulayıb. Professor A. Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırıb. Professor N. Şulpina Zərifə xanımı dünya şöhrətli alim adlandıraraq, "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik" deyib.

Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Amma bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanım Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, artıq dünya siyasətində öz nüfuzu ilə seçilən, praqmatik fəaliyyəti ilə Azərbaycanı bölgənin lider dövlətinə çevirən Prezidentimiz İlham Əliyevin anasıdır.

Zərifə xanım qeyri-adi bir ana idi və övladlarına olan münasibət də xüsusi idi. Belə münasibətin bənzərini tapmaq çətindir. O, uşaqları sanki Ulu Tanrı tərəfindən bəxş olunan bir pay kimi qəbul edirdi. O, özünə rəhm etmirdi, analıq borcunu yerinə yetirməkdə də özünə rəhmi gəlmirdi. Hərdən analar uşaqlarına olan məhəbbətdə elə yüksək dərəcələrə çatırlar ki, bununla hamını heyrətə gətirirlər. Zərifə xanım belə analardan idi.

# İMƏCİLİYƏ YÜZLƏRLƏ KÖNÜLLÜ ÇIXMIŞDI





**Sağlam yaşamaq istəyiriksə, ən əvvəl təbiətin qorunması, ətraf mühitin mühafizəsi qayğısına qalmalıyıq. Çünki sağlam təbiət elə sağlam həyat deməkdir.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA - Ətraf Mühitin mühafizəsi üzrə Beynəlxalq Dialoq İctimai Birliyinin təsisçisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizin hər yerində "Ümumrespublika yaşıllaşdırma marafonu" layihəsi çərçivəsində ağacəkmə aksiyası keçirilir. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin kollektivi də bu nəcib təşəbbüsə həvəslə qoşulmuşdur. Cəmiyyətin bütün müəssisə və təşkilatlarında şənbə günləri keçirilən iməciliklərə yüzlərlə könüllü çıxır.

Aprelin 18-də "Bibiheybət" Gəmi Təmiri Zavodunun ərazisində keçirilən iməcilikdə Cəmiyyətin sədri Rauf Vəliyev başda olmaqla qurumun rəhbər işçiləri, zavodun kollektivi və Azərbaycan Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri iştirak etdilər.



Səhər saatlarından başlayan və hamının böyük ruh yüksəkliyi ilə iştirak etdiyi bu tədbirdə abadlıq işləri görüldü, çirkli ərazilər zibil və tullantılardan təmizləndi, ağac və bəzək kolları əkildi.

Ətraf mühitin mühafizəsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına töhfə verilməsi məqsədi ilə keçirilən belə aksiyalar davam etdiriləcəkdir.

**Tahir DADAŞOV**



## Qeyri-leqal miqrasiya ilə mübarizədə razılığa gəliblər

**Avropa İttifaqının (Aİ) liderləri Brüssel sammitində qeyri-leqal miqrant axını ilə mübarizə üçün büdcəni artırmışlar. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir. Afrikadan miqrasiya ilə mübarizə üzrə "Triton" dəniz əməliyyatının hazırda 2,9 milyon avro təşkil edən aylıq büdcəsini minimum iki dəfə artırmaq qərara alınmışdır.**

Almaniya və Fransanın hər biri Aralıq dənizində patrul xidməti keçmək üçün iki gəmi ayırmağı öhdəsinə götürmüşdür. Aİ-nin üzvü olan digər dövlətlər də patrul üçün gəmi və helikopterlər ayırmağa hazır olduqlarını bildirmişlər. Böyük Britaniya Aralıq dənizinə üç gəmi və üç helikopter göndərməyə razılıq vermişdir. Bununla belə, Britaniyanın Baş naziri Devid Kemeron bəyan etmişdir ki, onun ölkəsi qaçqınları qəbul etməyəcək.

Dövlət başçılarının nəzərdən keçirdikləri tədbirlər Aİ ölkələri xarici işlər və daxili işlər nazirlərinin cari ayın 20-də Lüksemburqda keçirilmiş birgə müşavirəsində hazırlanmışdır. Nazirlərin qəbul etdiyi plan 10 bənddən ibarətdir və əsasən "Triton" əməliyyatının büdcəsinin artırılmasını, qaçaqmalçıların gəmilərinin ələ keçirilib məhv edilməsini, bütün miqrantlardan barmaq izlərinin götürülməsini, münaqişə zonalarından gələn qaçqınları müxtəlif ölkələrdə yerləşdirmək üçün sığınacaqların yaradılmasını nəzərdə tutur.

# Türkiyəli rəsmilər AXDG-nin nəqliyyat donanması ilə tanış olublar

**Türkiyənin bir sıra nazirliklərini təmsil edən nümayəndə heyəti Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Dəniz Nəqliyyat Donanmasında olub. Səfərin əsas məqsədlərindən biri Xəzər dənizinin tranzit imkanlarının perspektivləri və buradan yük daşıyan Ro-Ro tipli gəmilərlə tanış olmaqdır.**

Qeyd edək ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin nəqliyyat donanmasına 2 ədəd Ro-Ro tipli gəmi daxildir. Bunlar "Bəstəkar Fikrət Əmirov", "Bəstəkar Qara Qarayev" gəmiləridir ki, onların da hər birinin yükgötürmə qabiliyyəti 3463 tondur. Bu gəmilərlə Bakı - Aktau - Bakı və Bakı - Türkmənbaşı - Bakı istiqamətlərində yük və minik avtomobilləri daşınır.

Görüşdə türkiyəli qonaqlara məlumat verilib ki, AXDG-nin yanalma körpüsündə yüklərin gəmilərə daxil olması prosesinin şəffaflığı və yüklərin izlənilməsi üçün elektron sistem yaradılıb. Bunun sayəsində sahibkarlar onlayn şəkildə yüklərinin hərəkət marşrutunu rahat izləyə bilirlər. Yükləmə və boşaltma əməliyyatlarının sistemləşdirilməsi nəticəsində isə statistikanın daha dəqiq aparılması mümkün olub. Bundan əlavə, limana daxil olan hər kəs öncə xidmətlərin tarifləri ilə tanış olur. Bir sözlə, yeni sistem AXDG-nin yükdaşıma xidmətində şəffaflığı tam təmin edir. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC sədrinin müavini Fərhad Quliyev türkiyəli həmkarları ilə burada həmçinin yük avtomobillərinin sürücüləri ilə görüşüb, onların fikirlərini də öyrəniblər. Türkiyəli sürücülər əsasən Türkmənistan limanlarında müəyyən problemlərlə üzləşdiklərini, Azərbaycan tərəfində isə son bir ildə demək olar ki, neqativ halların aradan qaldırıldığını bildiriblər.

Türkiyənin Beynəlxalq Yükdaşıyıcılar Assosiasiyası İdarə heyətinin sədri Fatih Şener bildirib ki, hazırda il ərzində Azərbaycan ərazisindən tranzit kimi cəmi bir neçə min yük maşını keçirsə, İran ərazisindən istifadə edənlərin sayı 40 minə yaxındır. Onun sözlərinə görə, rəsmi Ankara Azərbaycandan keçən yük maşınlarının ən azı 10 minə qədər artırılmasının tərəfdarıdır.








# Gəmiçilikdə beynəlxalq standartlar üzrə treninqlər keçirilib





**Gəmiçiliyin beynəlxalq standartlara cavab verən bir şirkətə çevrilməsi üçün qurumun əməkdaşlarına treninqlər keçilir. Treninqlər indiyədək 30 mindən artıq dinləyiciyə təcrübələrinin artırılmasında yardımçı olan Amerika Gəmiçilik Bürosunun nümayəndəsi tərəfindən aparılır.**

Aprel ayının 20-dən başlayan treninqlərin əsas məqsədi Gəmiçiliyin əməkdaşlarının effektiv menecment təcrübəsinin artırılması, diqqəti müştərilərin ehtiyaclarına və ümidlərinə yönəltmək üçün Keyfiyyətin Menecmenti üzrə İSO 9001 və ətraf mühitin qorunması, çirklənməsinin qarşısının alınmasına dair İSO 14001 standartları ilə onları yaxından tanış etmək olub.

Treninqdə həmçinin OHSAS 18001 peşə sağlamlığı və təhlükəsizliyi üzrə Menecment Standartı, dünyanın bir çox aparıcı şirkətlərində bədbəxt hadisələrin və peşə xəstəliklərinin azaldılması üçün tətbiq olunan standartlara nail olmağın yolları barədə məlumat verilib. Yekun nəticədə AXDG bu standartlar üzrə sertifikatlar alacaq ki, bu da onun beynəlxalq bazarda nüfuzunu daha da artıracaq.

Treninq zamanı dinləyicilərin diqqətinə çatdırılıb ki, Azərbaycanın da üzv olduğu Birləşmiş Millətlər Təşkilatının mühüm qurumu olan Beynəlxalq Dəniz Təşkilatına (İMO) 169 ölkə daxildir. Hazırda dünya sularında çəkisi 500 tondan artıq olan 70 min gəmi üzür ki, həmin nəqliyyat vasitələrində də 1,7 milyon insan çalışır. Bu sayda işçinin çalışdığı bir sahədə istər insan həyatının mühafizəsi, istərsə də texniki təhlükəsizlik məsələlərinə diqqət yetirilməsi çox vacibdir. Qəbul olunmuş standartlara və prosedurlara riayət edilməyəndə isə insan sağlamlığına və gəmilərə ziyan vuran hadisələr baş verir.

Treninqlər aprelin 24-də başa çatıb.

Qeyd edək ki, dunyada gəmiçilik sahəsində qanunlar daim təkmilləşdirildiyindən və yeni standartlar tətbiq olunduğundan "AXDG" QSC zamanla ayaqlaşmaq və işçilərinin peşəkarlığını artırmaq üçün mütəmadi olaraq treninqlər təşkil edərək xaricdən mütəxəssislər dəvət edir. Gəmiçilikdə sonuncu belə treninq 2 ay öncə keçirilmişdi.

**"DƏNİZ"**





## ƏHALİNİN SAYI ARTIB

**Bu il mart ayının 1-nə Azərbaycan əhalisinin sayı 9 milyon 611min 700 nəfərə çataraq ilin əvvəlindən 18700 nəfər və ya 0,2 faiz artıb.**



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ölkə əhalisinin bir kvadratkilometrə düşən sıxlığı 111 nəfər təşkil edir. Əhalinin ümumi sayında 53,1 faizi şəhər, 46,9 faizi kənd sakinlərinin, 49,8 faiz kişilərin, 50,2 faizi isə qadınların payına düşür. Hazırda hər 1000 kişiyə 1009 qadın düşür.

Bu ilin yanvar-fevral ayları ərzində doğulanların sayı ölənlərin sayından 18,5 min nəfər çox olub. Belə ki, bu ilin ilk iki ayı ərzində ölkədə 27,9 min, yaxud hər gün orta hesabla 473 körpə doğulub, əhalinin hər 1000 nəfərinə hesabı ilə bu göstərici 18,2 təşkil edib. Doğulanların 53,6 faizi oğlan, 46,4 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrin 514-ü əkiz, 15-i isə üçəm doğulub.

İlin əvvəlindən ölkədə 9,4 min ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə hesabı ilə ötən ilin müvafiq dövrü ilə müqayisədə ölüm səviyyəsi 7,0-dan 6,1-ə qədər azalıb.

## HƏRBİ SAHƏYƏ KİM DAHA ÇOX VƏSAİT XƏRCLƏYİR?

**Stokholm beynəlxalq dünya problemlərinin tədqiqatlar institutu qlobal silah ticarətinin vəziyyəti və silahlanmaya ayrılan vəsaitə dair növbəti məruzəsini dərc edib. Məruzədə göstərilmiş məlumatlara əsasən, 2014-cü ildə dünya üzrə hərbi xərclərin ümumi həcminin 4,8 faizi Rusiyanın payına düşür. Bu da Rusiyanı ABŞ (34 faiz) və Çindən (12 faiz) sonra üçüncü mövqeyə çıxarır.**



2014-cü ildə Rusiyanın hərbi xərcləri 2013-cü illə müqayisədə 8,1 faiz artaraq 84,5 milyard dollara və ya ümumi daxili məhsulun 4,5 faizinə çatıb. Neft satışından əldə edilən gəlirin azalması ilə əlaqədar 2014-cü ildə ölkənin müdafiə büdcəsi də 5 faiz ixtisar edilib. Dünyada ən iri hərbi xərclərə malik ABŞ ikinci pillədə qərarlaşan Çini təxminən üç dəfə qabaqlayır. Amerika Birləşmiş Ştatları 2014-cü ildə ordunun xərclərini 6,5 faiz azaltsa da, bu göstərici yenə yüksək səviyyədə qalır. Vaşinqton 2014-cü ildə hərbi məqsədlərə 610 milyard dollar və ya ümumdaxili məhsulun 3,5 faizini xərcləyib. 2015-ci ildə də ABŞ-ın hərbi xərclərini ixtisar edəcəyi gözlənilir. 2010-cu ildə Pentaqonun pik nöqtəsinə çatan büdcəsi bu günədək 19,8 faizə qədər azaldılıb.

Çinin hərbi xərcləri isə iqtisadiyyatının inkişafı ilə paralel artmaqdadır. İnstitutun məlumatına görə, Çin hərbi xərclərini ümumdaxili məhsulun 2-2,2 faizi həcmində saxlayır. Ötən il bu ölkənin orduya xərclədiyi vəsait 9,7 faiz artaraq 216 milyard dollara çatıb. Faiz nisbətində hərbi sahəyə ən çox vəsait ayıran ölkə isə Səidiyyə Ərəbistanı olub. Krallıq keçən il orduya xərclənən vəsaiti 17 faiz artırıb. Ümumilikdə isə dünyada hərbi məqsədlərə xərclənən vəsait artıq üç ildir ki, azalmaqdadır. Ötən il dünya üzrə orduya ayrılan xərclərin ümumi həcmi 1,776 trilyon dollar olub ki, bu da 2013-cü ildəki analoji xərclərdən 0,4 faiz azdır.

# Yedəkləmə əməliyyatı uğurla başa çatdırıldı







Bir aylıq hazırlıq işlərindən və hava şəraiti sabitləşəndən sonra Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi növbəti ugurlu yedək əməliyyatını həyata keçirdi. Belə ki, Sinqapurun "Ezion Exerter Limited" şirkətinə məxsus, çəkisi 12 min ton, hündürlüyü 130 metr olan yarımdalma qurğusu aprelin 17-də səhər saat 6-da Cəmiyyətin 5 gəmisi ilə yedəyə alındı. Texniki baxımdan çox mürəkkəb olan əməliyyat zamanı buruq Bakı buxtasından çıxarılaraq "Andoga" və "Om" əsas yedək gəmiləri vasitəsi ilə peşəkarlıqla təyin olunan koordinatlara çatdırıldı. Əməliyyat zamanı daha 3 liman yedək gəmisinin köməyindən istifadə edildi. Hazırda yarımdalma qurğusunun tənzimlənməsi işləri aparılır.

## *I Avropa Oyunları ərəfəsində*

# OLİMPİZM UNİVERSAL İCTİMAİ KONSEPSİYADIR

**Baron Pyer de Kuberten Olimpiya Oyunlarını bərpa etmək ideyası üzərində düşünərkən, idmanın daha sürətlə inkişaf edərək ümumi mədəniyyətin vacib hissəsinə çeviriləcəyinə, bədən tərbiyəsi və idmanın dəyərli ünsiyyət vasitəsi olduğuna, idmanın müxtəlif mədəniyyətlərə sirayət edə bilmək və onları birləşdirmək iqtidarına malik olduğuna, şübhəsiz, böyük inam vardı.**

Kiberten bir pedaqoq olaraq apardığı araşdırmalar və həyat təcrübəsinə əsasən idmanın tərbiyəvi xüsusiyyətlərini lazımınca dəyərləndirə bilmişdir və odur ki, Olimpizmi bədənin, təfəkkürün və ruhun harmoniyasından pərvazlanan bir həyat fəlsəfəsi kimi formalaşdıraraq təqdim etmişdir. Müasir dövrdə cəmiyyətdə durmadan təbliğ edilən Demokratiyanın ən ümdə prinsipləri - bərabərlik və insan şəxsiyyətinə hörmət, təqribən 120 il öncə Müasir Olimpiya Hərəkatının əsasını təşkil etmişdir.

Olimpizm haqqında düşünərkən, onun dünyada bəlkə də ən çox tanınan, universal, etnik mənsubiyyətindən, cinsindən, sosial sinfindən, irqindən, dinindən və dünyagörüşündən asılı olmayaraq, hər bir insana aidiyyəti olan bir fəlsəfi istiqamət olduğunu dərk edirsən. Olimpizm öz inkişaf yolunda hər bir mədəniyyətə, istənilən coğrafi əraziyə münasib olması üçün öz prinsiplərini və dəyərlərini təkmilləşdirmiş, insanın həyat dəyərlərini əsas hədəf seçmişdir.

Olimpizm və Demokratiya arasındakı əlaqə və Olimpiya dəyərlərinin demokratik dəyərlərin möhkəmləndirilməsinə təsiri məsələləri beynəlxalq institutların diqqət mərkəzindədir və cəmiyyətdə hər kəsin müyəssər ola biləcək, effektli bir vasitə kimi geniş şəkildə istifadə edilir. Olimpizmin iştirakçısı olmaq yalnız bir idmançı kimi Olimpiya oyunlarında çıxış edənlərlə məhdudlaşmır. Olimpiyaçı olmaq - olimpiya ruhuna qoşulmaq, onun fəlsəfəsini dərk etmək, qaydalarına riayət etmək və təbliğində iştirak etməkdir. Bunun üçün isə xüsusi təhsil və ya peşə sahibi olmaq tələb olunmur. Pedaqoq, jurnalist, idman mütəxəssisi, inzibatçı, rəssam, musiqiçi, fəhlə, tələbə və digər fəaliyyət sahiblərinin olimpiya hərəkatında fəal iştirak etmək, ətrafdakıları bu fəlsəfənin prinsiplərinə riayət etməyə cəlb etmək, nəzəriyyədən təcrübəyə keçmək üçün yaradıcı, geniş düşünmək və cəlb olunanların fəaliyyətindən zövq alması üçün təşəbbüskarlıq göstərmək və beləcə, Olimpizmin dəstəkçisinə çevrilmək imkanı vardır.

Olimpiya hərəkatının və onun dəyərlərinin cəmiyyətdə səmərəli təbliğ edilməsi üçün, ilk növbədə, Olimpiya fəlsəfəsini özündə əks etdirən, Olimpiya Hərəkatının hüquqi bazası olan Olimpiya Xartiyası ilə tanış olmaq, Olimpiya təhsilinin cəmiyyətdə vüsət almasına hər vasitə ilə nail olmaq lazımdır. Olimpiya hərəkatının rəmzləri: Olimpiya devizi, halqaları, himni, məşəli, Olimpiyaçı idmançıların, məşqçilərin, rəsmilərin andı və Olimpiya bayrağı haqqında məlumatları öyrənmək və onu cəmiyyətin digər üzvlərinə çatdırmaqla insanların bu unikal və universal həyat fəlsəfəsini dərk etməsinə nail olmaq mümkündür.





### MÜASİR OLİMPİYA OYUNLARININ SİMVOLLARI ÖZÜNDƏ OLİMPİYA RUHUNU BİRLƏŞDİRİR

Olimpiya devizi üç latın sözündən - "Citius, Altius, Fortius"dan ibarət olub "Daha Sürətlə, Daha Yüksəyə, Daha Güclü" kimi tərcümə edilir. Bu şüar yalnız fiziki cəhətdən deyil, eyni zamanda, ruhun və təfəkkürün inkişafına çağırışdır.

"Olimpiadada əsas qələbə deyil, iştirakdır" ifadəsi də qeyri-rəsmi Olimpiya devizinə çevrilib. Bu ifadə 1908-ci ildə London Olimpiadasında deyilmişdi. Kral ailəsi tərəfindən mükafatlandırılma mərasimində marafon yarışının finişində istəmədən kənar yardım aldığına görə nəticəsi ləğv edilmiş İtaliya idmançısına (Pietri Dorando) idmanda əldə etdiyi yüksək nəticələrə görə qızıl kubok təqdim edilir. Həmin gün Pensilvaniya yepiskopu kilsədə "Olimpiadada əsas qələbə deyil, iştirakdır" söyləyərək, var qüvvəsi ilə səy göstərib, lakin qələbə əldə etməyən idmançı ilə birgə həyəcan keçirməyin özü də Olimpiya iştirakçısı olmaq kimi məna kəsb etdiyini bildirir. Bu isə Olimpizmin hüdudlarının genişliyinə, dünyanın hər yerindən olan insanların hər hansı bir şəkildə (istər azarkeşlik, istər başqa növ dəstəklə) Olimpiya ruhu və dəyərləri altında birləşə bilmələrinə dəlalət edir.

Olimpiya dəyərləri müxtəsər olaraq "Mükəmməllik, Hörmət və Dostluq" kəlmələri ilə ifadə olunur. Mükəmməllik - qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün səy göstərmək, qadağa və fırıldaqçı əməllərdən uzaq olmaqla nailiyyət əldə etmək deməkdir. Burada məqsəd öncə deyil, öz bacarıqlarını real dəyərləndirdikdən sonra müəyyən oluna bilər. Hörmət - başqalarına və həmçinin öz şəxsiyyətinə göstərilən münasibətdir. Bu ifadədə qaydalara riayət etmək və ədalətlə mübarizə aparmaq, insan sağlamlığının və ətraf mühitin qayğısına qalmaq, heç bir ayrı-seçkilik göstərmədən hər bir insan şəxsiyyətinə hörmət və tolerantlıq nümayiş etdirmək nəzərdə tutulur. Dostluq - insanların, idmançıların daimi fəaliyyətidir. Yarış və məşq zamanı, eləcə də gündəlik həyatda insanlar bir-birilə görüşür, salamlaşır, müxtəliflikləri (fiziki, mədəni, dini, irqi və s.) qəbul edir və anlaşır. Bu üç ifadə ayrılmazdır və onları idman fəaliyyətində və idmandankənar həyatda birgə istifadə etdikdə əsl harmoniya yaranır.

Müasir Olimpiya Oyunlarının simvolu olan Olimpiya halqaları beş qitənin və bütün dünya insanlarının, o cümlədən idmançıların birliyini əks etdirir. Ağ rəngli Olimpiya bayrağı fonunda trapesiya formasında bir-birinə keçirilmiş halqalar mavi, qara, qırmızı, sarı və yaşıl rəngdədir. Halqaların rənglərindən heç olmasa biri bütün dünya dövlətlərinin milli bayraqlarında öz əksini tapır. Bu simvol Pyer de Kuberten tərəfindən 1914-cü ildə Olimpiya Konqresində təklif edilmiş və ilk dəfə 1920-ci ildə Antverpen Olimpiya Oyunlarında stadionda dalğalanmışdır.

Olimpiya məşəli Qədim və Müasir Olimpiya Oyunları arasında əlaqəni göstərsə də, bilavasitə Müasir Oyunların kəşfidir. Qədim Olimpiadalarda məşəlin yandırılması məhz Oyunların keçirilməsi ilə əlaqədar deyildi. Oyunların keçirildiyi ərazidə, Zevsin və Heranın iqamətgahları yerləşirdi və burada məşəllər daim yandırılırdı. Müasir dövrdə Oyunların keçirilməsindən bir neçə ay öncə məşəl Qədim Olimpiya Oyunlarının vətəni olan Olimpiya şəhərində Heranın məbədinin qalıqları arasında yandırılaraq, Oyunlara ev sahibliyi edəcək şəhərə aparılır. Məşəl təyinat yerindən asılı olaraq, dəniz və okeanlar, səhra və dağlar, şəhər və kəndlərdən keçərək müxtəlif nəqliyyat vasitələri ilə çoxsaylı insanların əlindən ötürülərək Oyunların Açılış Mərasimində Olimpiya stadionunda alovlandırılır. Müxtəlif ərazilərdən keçən Olimpiya məşəli insanlara Olimpiya ruhu, sülh və dostluq hissləri bəxş edir.

Pyer de Kuberten tərəfindən tərtib olunmuş Olimpiya andı (sonralar qismən dəyişdirilib) Oyunlara ev sahibliyi edən ölkənin idmançısı, məşqçisi və rəsmisi (və ya hakimi) tərəfindən bütün iştirakçılar adından oxunulur. Andı oxuyan nümayəndə Olimpiya bayrağının ucundan tutur. İdmançılar tərəfindən Olimpiya andı ilk dəfə 1920-ci ildə (Antverpen), rəsmilər tərəfindən1972-ci ildə (Münhen), məşqçilər tərəfindən isə 2012-ci ildə (London) səslənmişdir. Olimpizmin yüksək mənəvi dəyərlər üzərində qurulduğu Olimpiya andının mətnindən də bəlli olur.

### İDMANÇILARIN OLİMPİYA ANDI

Bütün idmançılar adından vəd edirəm ki, bu Olimpiya Oyunlarında bizim komandaların şərəfi və idmanın eşqinə, tələb olunan qaydalara hörmət və riayət edərək, dopinq və narkotik vasitələrə aludə olmadan, əsl idman rəqabəti ruhunda iştirak edəcəyik.

### RƏSMİLƏRİN OLİMPİYA ANDI

Bütün hakimlərin adından vəd edirəm ki, biz bu Olimpiya Oyunlarında, idmanın eşqinə, tələb olunan qaydalara hörmət və riayət edərək, heç bir qərəzsiz, əsl idman rəqabəti ruhunda xidmət edəcəyik.

### MƏŞQÇİLƏRİN OLİMPİYA ANDI

Bütün məşqçilər və idmançıları müşayiət edən digər nümayəndələrin adından Olimpizmin fundamental prinsiplərinin dəstəklənməsi naminə əsl idman rəqabəti və ədalətli oyun ruhuna sadiq qalacağımızı vəd edirəm.

Olimpiya Hərəkatının daha bir simvolu onun əzəmətli himnidir. 1896-cı ildə yazılmış və BOK tərəfindən təsdiq edilmiş (1958-ci ildə) Olimpiya Himninin musiqisi yunan bəstəkarı Spiros Samarasa, sözləri isə yunan şairi Konstantinos Palamasa məxsusdur. Şair Olimpiya məşəlini ümid məşəli adlandırır və bu ümidi yalnız idman qələbəsi ilə deyil, qədim ənənələri olan Oyunların məşəli altında bütün dünya xalqlarını birləşdirmək, ilhamlandırmaq, ünsiyyət yaratmaq və qardaşlaşdırmaq ümidi ilə bağlayır. Himnin mətnində nəcibliklə, ədalətlə əldə edilən qələbənin şərəfli olduğu və həqiqi şöhrət gətirdiyi, şücaət meydanı olan Olimpiya Oyunlarının həmçinin harmoniya, gözəllik, əzəmət və sevginin təcəssümü olduğu vəsf edilir.

*(Davamı var)*

*Artur BLOX*

# MERFİ QANUNU

(Əvvəli qəzetimizin keçən sayında)

**Xətlər qaydası.** Düz xətlər olmur.

**Roberts aksiomu.** Təkcə səhvlər mövcuddur.

**Roberts aksiomundan doğan Berman nəticəsi.** Biri üçün səhv digəri üçün başlanğıc deməkdir.

**Etibarsızlığın birinci qanunu.** Səhv etmək insana xas xüsusiyyətdir. Lakin qəti olaraq hər şeyi təkcə kompyuter qarışdıra bilər.

**Qridin üçüncü qanunu.** Maşın proqramı əmrinizi yerinə yetirir, ürəyinizdən keçəni yox.

**Leo Beyzerin birinci kompyuter aksiomu.** EHM-in yaddaşına ötürdüyünüzü hara qoyduğunuzu yadda saxlayın.

**Şteynbaxın sistemli proqramlaşdırma üzrə təlimatı.** Nə etmək lazım gəldiyini bilmədiyiniz halda proqramda səhv tapmağa çalışmayın.

## DÖVLƏT İŞLƏRİNİ İDARƏETMƏ VƏ İQTİSADİ MERFOLOGİYA SƏNƏTKARLIĞI

**Liberman qanunu.** Heç kəs qulaq asmadığı üçün hamının yalan danışdığının əhəmiyyəti yoxdur.

**Kolbasa prinsipi.** Kolbasanı sevən və qanuna hörmət edənlər onun və bunun necə hazırlandığını görməsələr yaxşıdır.

**Toddun birinci iki siyasi prinsipi.**

1. Sizə nə dedikləri vacib deyil - sizə yarım həqiqəti deyirlər.

2. Nə haqda danışdıqları vacib deyil - söhbət həmişə puldan gedir.

**Uotergeyt prinsipi.** Hökumətdə korrupsiya barədə həmişə iş-işdən keçəndən sonra danışırlar.

**Radikallar üçün Alinsk qaydası.** Daha yüksək əxlaqlılar məsələnin həllindən uzaq olan adamlardır.

**Mayls qanunu.** Görmə bucağı tutduğu yerdən asılıdır.

**Evans qanunu.** Hamı başını itirdiyi halda siz çiyninizdə saxlaya bilirsinizsə, deməli sadəcə vəziyyətdən hali deyilsiniz.

**Faktları təhrifetmə qaydası.** Təşkilatlarda məlumatlar aşağıdan yuxarıya verilərkən təhrif edilir.

**Xornqren müşahidəsi.** İqtisadçılar arasında real həyat çox zaman fərdi hadisə sayılır.

## PRAYS QANUNLARI

1. Hər kəs istəməsə, heç kəs almaz.

2. Kütlədən çıxan adama kütləvi vasitələrlə xidmət göstərilməlidir.

3.Hər şey yoluxub.

**Brayen qanunu.** Heç nə ağılla görülmür.

**Qlaymın müvəffəqiyyət formulu.** Müvəffəqiyyətin sirri səmimilikdədir. Onu yarada bilsəniz, hər şey qaydasında olacaq.

## EKSPERT OLMAQ SƏNƏTKARLIĞI

**Mars qaydası.** Ekspert şəhərimizdən olmayan istənilən adamdır.

**Uorren qaydası.** İşin çox vaxt aparacağını və baha başa gələcəyini düşünənləri ekspert götürmək lazımdır.

**Şreder qanunu.** Qətiyyətsizlik çevikliyin əsasıdır.

**Berk qaydası.** Heç vaxt həlli sizə məlum olmayan məsələ qaldırmayın.

**Nəticə.** Həlli yalnız sizə məlum məsələ qaldırın.

**Mats aforizmi.** Nəticə mətnin sizin düşünməkdən yorulduğunuz yerindədir.

**Tarixin birinci qaydası.** Tarix təkrar olunmur, tarixçilər bir-birini təkrar edirlər.

**Danlepin fizika qanunları.**

1. Fakt daşlaşmış fikirdir.

2. Yüksək temperatur və təzyiqin təsirindən faktlar yumşalır.

3. Həqiqət elastikdir.

**Merkin maksimi.** Proqnozunuza şübhə edirsinizsə, deyin ki, bu, növbəti mərhələdə də özünü göstərəcək.

**Xalqren həlli.** Pis vəziyyətə düşəndə dumanda gizlənin.

**Xokinsin inkişaf nəzəriyyəsi.** Tərəqqi səhv nəzəriyyənin düzgün nəzəriyyə ilə əvəzlənməsində deyil, inceləşdirilmiş səhv nəzəriyyənin düzgün nəzəriyyə ilə əvəzlənməsindədir.

**Meyer qanunu.** Qəlizləşdirmək asan, sadələşdirmək çətindir.

**Xleyd qanunu.** Mürəkkəb məsələnin həllini tənbəl işçiyə tapşırın, o, daha sadə yol tapacaq.

**Xant qanunu.** İstənilən böyük ideyanın ona bərabər və ya ondan üstün nöqsanı var.

**Xenlon ülgücü.** Pis niyyətə axmaqlıq əlaməti kimi baxmayın.

## TİBB MERFOLOGİYASI

Xəstələr üçün altı prinsip.

1. Həkim sizin xəstəliyinizin adını bilirsə, bu o demək deyil ki, nə olduğunu da bilir.

2. Qəbul otağındakı jurnal nə qədər köhnə və cansıxıcıdırsa, o qədər də çox gözləməli olacaqsınız.

3. Məhlullu şüşənin üstündə "Uşaqlardan qoruyun" yox, "Böyüklərdən qoruyun" yazmaq lazımdır.

4. Qəbulun sonuncu günü ya həb heç qalmır, ya da çox qalıb.

5. Yeməklə qəbul edilən dərman çox pis qoxuyur.

**Nəticə.** Həkim yazanda suyu da içmək xoş deyil.

6.Səhhətinizin yaxşılaşmasını həkimin səhhətinin pisləşməsi ilə izah etmək olar.

**Dərmanlara aid Mats qaydası.** Dərman siçovula yeridilmiş təcrübənin elmi hesabatı və ya məqaləsidir.

**Dilimizə çevirən: Rasif TAHİROV**

# Atletlər kəndində 7 mindən artıq idmançının qalması üçün bütün şərait yaradılıb

**İlk Avropa Oyunları zamanı Bakıya gələn idmançıların və məşqçilərin qalması üçün tikilən Atletlər kəndi paytaxtın şimal-qərb hissəsində, Bakı Olimpiya Stadionu və Milli Gimnastika Arenasından bir qədər aralıda yerləşir.**



AZƏRTAC xəbər verir ki, kompleks 10-15 mərtəbəli 13 əsas binadan ibarətdir. Bu binalarda 1042 mənzil var və ən kiçik mənzildə 3, ən böyük mənzildə isə 5 yataq otağı yerləşir. Buna əsasən demək olar ki, bir mənzildə minimum 6, maksimum 10 atlet qala bilər. Burada 7 min 878 atletin qalması üçün bütün şərait yaradılıb və artıq atletlərin qalacaqları mənzillər tam hazırdır.



Hər bir mənzildə ayrıca yemək və istirahət otaqlarından əlavə kənddə 3 böyük yeməkxana və istirahət mərkəzləri də fəaliyyət göstərəcək. Hazırda istirahət mərkəzlərində və yeməkxanalarda son tamamlanma işləri gedir. Atletlər kəndində hər binada ayrıca camaşırxana da fəaliyyət göstərəcək ki, idmançılar burada camaşır və quru təmizləmə xidmətlərindən istifadə edəcəklər.

Kənddə, həmçinin idmançılar üçün basketbol, futbol və tennis stadionları da tam hazırdır.



Burada idmançıların yarışların keçiriləcəyi məkana getmələri də nəzərə alınaraq böyük avtobus dayanacağı inşa edilib. Artıq atletlərin qalacaqları mənzildə qeydiyyatı da başa çatmaq üzrədir.

Atletlər iyun ayının 3-dən başlayaraq Bakıya gələcəklər və iyulun 1-də son atlet öz ölkəsinə dönəcək.

Qeyd edək ki, Bakıda keçiriləcək ilk Avropa Oyunlarının başlamasına təxminən bir ay yarım vaxt qalır. Oyunlarda 20 idman növü üzrə 6000-dən çox idmançı yarışacaq.

# Avropa Birliyi müsəlman ölkələrindən olan miqrantların Aralıq dənizində boğulmalarına yalnız tamaşa edir

**Liviya sahillərində içərisində 700 miqrant olan gəmi batıb. "The Times of Malta"nın verdiyi məlumata görə, yalnız 28 miqrant xilas edilə bilib. Digərləri isə həlak olublar.**

Miqrantları Avropaya gətirən gəmi Aralıq dənizində, İtaliyanın Lampeduza adasından 200 kilometr cənubda qəzaya uğrayıb.

"Agence France-Presse" qeyd edir ki, bu, il ərzində baş vermiş ən irimiqyaslı gəmi qəzasıdır.

Xatırladaq ki, apreldə Aralıq dənizində bu faciədən əvvəl baş verən gəmi qəzaları nəticəsində də miqrantlar həlak olmuşdu. Belə ki, aprelin 14-də Aralıq dənizində baş vermiş gəmi qəzası nəticəsində təxminən 400 mühacir suda boğulmuşdur.

Gəmi Liviyadan İtaliyaya gedirmiş.

Hadisə zamanı xilas edilib İtaliya limanına gətirilmiş mühacirlərin dediklərinə görə, ölənlərin əksəriyyəti gənclərdir. Göyərtədə cəmi 550 nəfər olmuşdur. Gəmi dənizə çıxandan bir gün sonra aşmışdır.

Bu hadisədən iki gün əvvəl - aprelin 14 isə Aralıq dənizində Liviyadan İtaliyaya gedən gəmi qəzaya uğrayıb. Beynəlxalq Miqrasiya Təşkilatının verdiyi məlumata görə, gəmi qəzası nəticəsində 41 nəfər həlak olub, 4 nəfər isə xilas edilib.

Sağ qalan miqrantlar bildiriblər ki, onlar Tripolidən gəliblər. Dörd gün gəmidə olublar. Afrikalı miqrantları vertolyotlar xilas edib və Siciliya adasına gətirib.



Qeyd edək ki, ötən il Aralıq dənizində Avropa sahillərinə üz tutan 3 min nəfərdən çox mühacir batmışdır. Son bir il ərzində 207 min nəfərdən artıq mühacir isə Aralıq dənizindən Avropaya keçmişdir. Bu, 2011-ci il göstəricilərindən üç dəfə çoxdur. 2000-ci ildən bəri Aralıq dənizində 22 mindən artıq mühacir həlak olmuşdur.

2014-cü ildə isə Afrikadan və Yaxın Şərqdən İtaliyaya 170 min qaçqın gəlib. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının bildirdiyinə görə, Afrikadan və Yaxın Şərqdən Avropaya 200 min qaçqın gəlib. 3,5 min qaçqın isə Aralıq dənizində həlak olub.

Dənizdə qəzalar nəticəsində miqrantların həlak olması adi hala çevrilib. Avropa Birliyi isə nədənsə müsəlman ölkələrindən olan miqrantların Aralıq dənizində boğulmalarına yalnız tamaşa etməklə kifayətlənir.

*Tahir DADAŞOV*

*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Коносамент краткой формы — Qısa formalı konosament
### SHORT FORM BILL OF LADING

Коносамент, в котором некоторые или все условия договора перевозки указаны путем отсылки к какому-либо источнику или иному документу, чем коносамент. Выработан с целью упрощения коммерческой документации при экспортных перевозках грузов, затрагивающих интересы перевозчиков, страховщиков, банков, экспедиторов, портовых и таможенных властей. Оборотная сторона К.к.ф. - чистая, то есть без отпечатанных условий договора перевозки. На лицевой стороне есть указания о применении стандартных условий перевозки даннного судовладельца. Является документом на груз, «принятый для перевозки». Путем внесения отметки перевозчика «погружено на борт» может быть превращен в бортовой коносамент. К.к.ф - товарораспорядительный документ со всеми вытекающими отсюда правовыми последствиями. Может быть использован для транспортировки груза на морском участке или в качестве коносамента сквозного для контейнерных и генеральных грузов, а также коносамента на сгруппированные грузы.

Bu elə konosamentdir ki, onda yükdaşıma müqaviləsinin bəzi, yaxud bütün şərtləri hər hansı mənbəyə və ya başqa sənədə istinad edilməklə göstərilmişdir. Adıçəkilən sənəd daşıyıcıların, sığortaçıların, bankların, ekspeditorların, liman və gömrük hakimiyyət orqanlarının maraqlarına toxunan ixracat yüklərinin daşınması zamanı kommersiya sənədləşdirilməsinin sadələşdirilməsi məqsədi ilə hazırlanmışdır. Qısa formalı konosamentin arxa tərəfi təmiz, yəni yükdaşıma müqaviləsinin şərtləri çap edilməmiş olur. Üz tərəfində gəmi sahibinin standart daşınma şərtlərinin tətbiq edilməsi barədə göstərişləri verilir. «Daşınmağa qəbul edilmiş» yük üçün sənəd sayılır. Daşıyıcının «gəmiyə yüklənib» qeydini yazması ilə bort konosamentinə çevrilə bilər. Qısa formalı konosament buradan irəli gələn bütün hüquqi nəticələrlə bərabər, mal üzərində sərəncamverici sənəddir. Dəniz sahəsində yükün nəql edilməsi üçün, yaxud konteyner və ya ümumi yüklər üçün birbaşa konosament, habelə qruplaşdırılmış yüklərin konosamenti kimi istifadə edilə bilər.

### Коносамент морской — Dəniz konosamenti
### MARINE BILL OF LADING

Коносамент, используемый на морском транспорте. В практике торгового мореплавания используются следующие виды Км.:

1) Линейный коносамент (conlinebill) - используется в линейном судоходстве как основа для многих других проформ коносаментов;

2) Коносамент морского перевозчика (port to port bill of lading) -предназначен для транспортировки груза исключительно на морском участке;

3) Бортовой коносамент (shipped on board bill of lading) -подтверждает фактическое нахождение груза на борту конкретно названного судна;

4) Коносамент на грузы, принятые для перевозки (received for shipment bill of lading) - подтверждает принятие груза для перевозки и нахождение под охраной перевозчика или его представителей в ожидании прибытия судна либо своей очереди на погрузку.

Основные положения, определяющие права, а также объем ответственности судовладельцев при перевозках грузов по К.м., предусмотрены Брюссельской конвенцией о коносаменте (см. прилож.1, гл.4).

Dəniz nəqliyyatında istifadə edilən konosament. Ticarət gəmiçiliyi praktikasında dəniz konosamentinin aşağıdakı növlərindən istifadə olunur:

1) Xətti konosament (conlinebill) - xətti gəmiçilikdə konosamentin bir çox digər proformaları üçün əsas kimi istifadə edilir;

2) Dəniz daşıyıcısının konosamenti (port to port bill of lading) - yalnız yükün dənizlə nəqli üçün nəzərdə tutulmuşdur;

3) Bort konosamenti (shipped on board bill of lading) - yükün həqiqətən konkret adı qeyd edilən gəmidə olduğunu təsdiqləyir;

4) Daşınmağa qəbul edilmiş yüklərin konosamenti (received for shipment bill of lading) - yükün daşınmaq üçün qəbul edildiyini və gəminin gəlişini, yaxud yüklənmə üçün öz növbəsini gözlədiyi müddətdə daşıyıcının və ya onun nümayəndələrinin mühafizəsi altında olduğunu təsdiqləyir.

Dəniz konosamenti üzrə yüklərin daşınması zamanı gəmi sahiblərinin hüquqlarını, habelə onların məsuliyyət həcmini müəyyənləşdirən əsas müddəalar konosament haqqında Brüssel konvensiyasında (bax. əlavə 1, 4-cü fəsil) nəzərdə tutulmuşdur.

### Коносамент на сгруппированные грузы — Qruplaşdırılmış yüklər üçün konosament
### GROUPAGE BILL OF LADING

Объединение экспедитором товаров одного или нескольких продавцов, предназначенных для исполнения их обязательств по разным договорам купли-продажи товара с целью предъявления его морскому перевозчику. Экспедитор выдает клиенту свой документ, где указывается количество товара, принадлежащее клиенту. Этот документ называется домашним коносаментом (house bill of lading) или отгрузочным сертификатом (forwarder's certificate of receipt, FCR). Он может быть выдан как для отгруженного товара, так и для товара, принятого к отгрузке. При этом в качестве предмета договора перевозки может быть: а) полный контейнерный груз (full container load, FCS), то есть грузовые места помещены в один контейнер; б) товар не представляет собой полный контейнерный груз (less than a container load, SCS).

Dəniz daşıyıcısına təqdim etmək məqsədi ilə bir və ya bir neçə satıcının mal alqı-satqısının müxtəlif müqavilələri üzrə öhdəliklərinin icra edilməsi üçün nəzərdə tutulan mallarının ekspeditor tərəfindən birləşdirilməsi. Ekspeditor müştəriyə öz sənədini verir, burada müştəriyə məxsus olan malın miqdarını qeyd edir. Həmin sənəd ev konosamenti (house bill of lading) və ya göndərilmə sertifikatı (forwarder's certificate of receipt, FCR) adlanır. Həm göndərilən, həm də göndərilməyə qəbul edilən mal üçün verilə bilər. Bu halda daşınma müqaviləsinin predmeti aşağıdakılar ola bilər: a) tam konteyner yükü (full container load, FCS), yəni yük yerləri bir konteynerdədir; b) mal tam konteyner yükündən ibarət deyil (less than a container load, SCS).

### Коносамент оборотный — Dövriyyəli konosament
### NEGOTIABLE BILL OF LADING

Коносамент, составленный на предъявителя или на указанное в нем по приказу лицо. Держатель К.о. имеет право собственности на товары и право на выдачу по условиям документа.

Təqdim edən və ya əmrlə adı qeyd edilmiş şəxs üçün tərtib olunmuş konosament. Dövriyyəli konosamenti saxlayan şəxs mallara sahiblik hüququna və sənədin şərtləri üzrə onları vermə hüququna malikdir.

### Коносамент Общественного перевозчика, не владеющего тоннажем (NVOCC) — Tonnaja malik olmayan İctimai daşıyıcının konosamenti (NVOCC)
### NON VECCEL OWNER COMMON CARRIER (NVOCC) BILL OF LADING

Документ смешанной перевозки, выдаваемый компанией нового типа, которая действует одновременно в роли перевозчика, экспедитора, отправителя груза. Данная компания не имеет собственных транспортных средств, но обладает арендованными или собственными контейнерами. Предмет ее обязательств - организация перевозки и доставка груза «от двери до двери» с участием автомобильного, железнодорожного и морского перевозчиков. Для последних NVOCC является отправителем груза. Коносамент NVOCC внешне не отличается от коносамента морского. Аббревиатура NVOCC обычно не указывается. Банки склонны рассматривать коносамент NVOCC как документ экспедитора.

Qarışıq daşınmalar sənədi, yeni tipli - eyni zamanda daşıyıcı, ekspeditor, yükgöndərən rolunda fəaliyyət göstərən şirkət tərəfindən verilir. Həmin şirkətin şəxsi nəqliyyat vasitələri olmur, ancaq icarəyə götürdüyü, yaxud özünün konteynerləri olur. Onun öhdəliklərinin məqsədi daşımaları təşkil etmək və yükü avtomobil, dəmir yolu və dəniz nəqliyyatı vasitəsilə daşıyanların iştirakı ilə «qapıdan qapıyadək» çatdırmaqdan ibarətdir. Sonuncular üçün NVOCC yükgöndərən hesab edilir. NVOCC konosamenti zahiri görünüşünə görə dəniz konosamentindən fərqlənmir. NVOCC-un abreviaturası adətən qeyd edilmir. Banklar NVOCC konosamentinə ekspeditor sənədi kimi baxmağa meyllidirlər.

### Коносамент чистый — Təmiz konosament
### CLEAN BILL OF LADING

Коносамент, не содержащий каких-либо оговорок о наличии у перевозчика претензий к количеству и качеству принятого к перевозке груза или его упаковке. Коносамент чистый является обычным условием контракта купли-продажи, без соблюдения которого продавец, как правило, не может получить в банке причитающиеся ему за товар платежи. Банк может не принять коносамент с пометками (оговорками), если только в аккредитиве точно не указывается, какие из них допускаются.

Daşınmaq üçün qəbul edilmiş yükün miqdarına və keyfiyyətinə və ya onun qablaşdırılmasına daşıyıcının iddiasının olması barədə hər hansı bir qeyri-şərtin edilmədiyi konosament. Təmiz konosament alqı-satqı müqaviləsinin adi şərtidir, ona riayət etmədən satıcı, bir qayda olaraq, mala görə ona çatası ödənişləri bankdan ala bilməz. Bank qeydlərin (qeyd-şərtlərin) yazıldığı konosamenti o zaman qəbul etməyə bilər ki, akkreditivdə həmin qeydlərdən (qeyd-şərtlərdən) hansına icazənin verildiyi dəqiq göstərilməmiş olsun.

### Консорциум — Konsorsium
### CONSORTIUM

В торговом судоходстве объединение нескольких судоходных компаний с целью совместного использования имеющихся у них судов, оборудования, капитала, например, для улучшения сервиса контейнерных перевозок с применением современной техники.

Ticarət gəmiçiliyində bir neçə gəmiçilik şirkətinin onlarda olan gəmilərdən, avadanlıqdan, kapitaldan birgə istifadə etmək məqsədi ilə birləşməsi; məsələn, müasir texnikanın tətbiqi ilə konteyner daşımaları xidmətinin yaxşılaşdırılması üçün.

*(Davamı var)*

## 73 il əvvəl batan gəmidə xəzinə aşkarlanıb

İngilis xilasedicıləri Almaniyaya məxsus sualtı qayıq tərəfindən 1942-ci il noyabrın 4-də batırılan "City of Cairo" gəmisini Atlantik okeanının 5150 metr dərinliyindən çıxarıblar.

İkinci Dünya müharibəsi zamanı Hindistanın Mumbai şəhərindən İngiltərəyə gedərkən Müqəddəs Yelena adası yaxınlığında batırılan gəminin yeri ilk dəfə 1980-ci illərdə müəyyən olunub. Lakin indiyədək heç bir qrup gəminin olduğu yerə enə bilməyib. Gəmi su üzərinə çıxarıldıqdan sonra orada 50 milyon dollar dəyərində xəzinə də aşkarlanıb. Birləşmiş Krallığa aid 7 min ton yükün və 100 ton ağırlığında gümüş pulların olduğu gəmidə 302 sərnişinin daşındığı bildirilir. Həmin pulların o dövrdə Britaniyanın müstəmləkəsi Hindistana aid olması ilə əlaqədar xəzinənin bu ölkəyə qaytarılacağı bildirilir.

Qeyd edək ki, 1912-ci ilin aprelində batan "Titanik" gəmisinin qalıqları okeanın 3800 metr dərinliyindədir. İngilislər "City of Cairo" gəmisini 5150 metr dərinlikdən çıxarmaqla bu sahədə dünya rekorduna da nail olublar.

## SUDA VƏ QURUDA FƏALİYYƏT GÖSTƏRƏN MUZEY

Norveçin Oslo şəhərində fəaliyyət göstərən "Astrup Fearnley Museet" muzeyinin layihəsi "Renzo Piano Building Workshop" və "Narud-Stokke-Wiig" arxitektura şirkətlərinin memarları tərəfindən hazırlanıb.

Muzeyin çoxsaylı nazik polad sütunları yelkəni xatırladan şüşə damı saxlamağa xidmət edir. Binanın dam örtüyü isə taxta materialdan düzəldilib. Muzeyin zalları şüşə dam vasitəsilə günəş şüalarının və orada düzəldilmiş süni işıq mənbələrinin hesabına işıqlandırılır. Maraqlıdır ki, tikili su kanalı vasitəsilə ikiyə bölünüb. Binanın adada yerləşən hissəsinə xüsusi körpü ilə adlamaq mümkündür. Əsasən sərgilərin keçiriləcəyi muzeydə hədiyyələr mağazası və kafe üçün də yer ayrılıb. Binanın ümumi sahəsi 7 min kvadratmetrdir.



# Elan






**01.04.2015-ci il tarixindən Bakı-Aktau-Bakı xəttində avtonəqliyyat vasitələrinin daşınması üçün Ro-Ro gəmisi həftədə bir dəfə səfər edir.**

**Avtonəqliyyat vasitələrinin sayı artdıqca səfərlərin də sayı müvafiq olaraq artırılacaqdır.**

**Bakı-Aktau-Bakı və Bakı-Türkmənbaşı-Bakı istiqamətlərində bərələr hər gün səfər edirlər.**

***Əlaqə telefonları: (+99412) 498 02 44; 404 38 59 (+99450) 317 84 44***

***E-mail: chartering@acsc.az; ruslan.gurbanov@acsc.az***

## YARIZARAFAT, YARIGERÇƏK

- Deyəsən bəzi yaltaqların, e... "artistlər"in pulunu qabaqcadan verirlər axı...
- Sadəcə maraqlıdır. Başqalarına quyu qazanlar o dərinlikdə quyuları nə ilə qazırlar?
- Bilmədiyi işdən yapışan sonda yıxılmamaq üçün yapışmağa bir şey tapmayacaq.
- Qarşıdan qarpız mövsümü gəlir. Bu mövsümdə qarpızlar nə qədər böyük olsa, bir o qədər yaxşıdır. Heç olmasa, qoltuğuna verəndə, bilərsən ki, evə nəsə aparırsan.
- Həqiqət yeganə şeydir ki, təkcə yaxşı adamların deyil, pis adamların da dilindən eşitmək xoşdur.
- İşi iş bilməyənə vaxtı öldürmək üçün tapşırırlar?
- Savab iş görmək üçün hökm deyil ki, əmr verilsin.
- Bir ağac əkməyən nə bilir kök nədir.
- Uşaq vaxtı yalvaranda da, heç kəs mənə nağıl danışmaq istəmirdi. Yaşımın bu vaxtında niyə hamı mənə nağıl söyləmək istəyir?
- Mənə "Xox" gələnlərin əksəriyyəti Qarabağ savaşı zamanı fərarilik edənlərdir.
- Pis vərdişləri olan insanın ən böyük düşməni özüdür.
- Kimin kim olduğunu bilmək istəyirsənsə, bir az dinlə, bir az bax.
- Adam var ağıldan başqa, hara desən gələr.
- Uşaq vaxtımda çox aldadıblar. Cavan vaxtlarımda özüm-özümü aldatmışam. Bu yaşımda ancaq qanmazlara elə gəlir ki, məni aldadırlar...
- Başqasının halal çörəyini əlindən ala bilərsən, lap çeynəyə də bilərsən, amma uda bilməzsən.
- Deyəsən ermənilərə elə gəlir ki, ağlamayana erməni demirlər.
- İnkişaf savadsıza savadsız, yarıtmaza yarıtmaz, yaltağa yaltaq deməkdən və onlara layiq olduqları yeri göstərməkdən başlayır.
- Bilsəydim ki, sonda əziyyətim hədər getməz, bütün yaltaqları, satqınları, yaramazları birdəfəlik süpürüb dənizə tökərdim. Yox, ekoloqlardan qorxmuram. Qorxduğum odur ki, dəniz də zir-zibili əvvəl-axır sahilə tullayır.
- Adam tanıyan deyilik. 70 ildən sonra bildik ki, "əziz babamız" Lenin də bir kişi deyilmiş və ən böyük pisliyi də elə bizə edib.
- Halal haqqımı yeyənlərin nəzərinə! Haqq yerini ən tez mən təqaüddə olanda tutacaqsa, mənə o haqq lazım deyil. Necə deyərlər: nuş olsun!
- Qanım tez-tez qaralırsa, hansı qrupdan olmasının nə xeyri?
- Bəzilərinin sözü çoxdan qurtarıb. İndi təkrara keçiblər.
- Deyəsən həqiqətən qocalmışam. Son vaxtlar məni yaman ucuz satırlar.

***Rasif TAHİROV***

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

- Yalansız keçindiyin vaxtlar olur?
- Əlbəttə!
- Nə vaxt?
- Eh, o qədər tək olduğum vaxtlar olur ki...

***

Çoxdan bir-birilərini görməyən iki rəfiqə rastlaşır.
- Ərin sənə əl qaldırır?
- Nə danışırsan? İndiyədək çırtma belə vurmayıb.
- Onda niyə ancaq bir gözünün altını qaraltmısan?

***

- Fikir vermisən, az iş görənlər adətən çox danışan olurlar?
- Əksinə, çox danışdıqları üçün istər-istəməz iş görməyə vaxtları olmur.

***

- Deyə bilərsiniz axırıncı dəfə nə vaxt çimmisiniz?
- Suyumuz gələndə.
- Suyunuz ildə cəmi bir-iki dəfə gəlir ki?

***

- Bax, gördüyün o qarabəniz adam güllə atıcılığı üzrə dünya çempionudur. Bir vaxtlar məni istəyirdi...
- Bəxti gətirib, səninlə ailə qursaydı, indi yəqin ancaq və ancaq qəpiyə güllə atardı.

***

- Təzə müdirimin yaddaşı yoxdur.
- Nədən bilirsən?
- Tapşırıq verib və hər dəfə məni görəndə soruşur ki, o işi görüb qurtarmışam, yoxsa yox.
- Bu yaddaşsızlıq deyil, görünür səni yaxşı tanıyır. Yeri gəlmişkən, tapşırdığı işi bitirmisən?

***

- Niyə istedadsızlar istedadlılardan çox şeydə irəlidə olurlar?
- Çünki istedadsızların nə ayağından dartan olur, nə də ayaqlarının altını qazan.

***Rasif TAHİROV***

## İlk Avropa Oyunları zamanı idman obyektlərinin yaxınlığında yaşayan sakinlərə parkinq icazəsi vərəqələri mayın 15-dən sonra veriləcək

**"Bakı-2015" ilk Avropa Oyunları zamanı idman obyektlərinə yaxın ərazilərdə yaşayan vətəndaşlara parkinq icazəsi vərəqələri mayın 15-dən sonra veriləcək.**

AZƏRTAC xəbər verir ki, bu sözləri aprelin 24-də Bakı Şəhər İcra Hakimiyyətinin şəhər təsərrüfatı şöbəsinin müdiri Xalid Ələkbərov deyib.

İlk Avropa Oyunları zamanı Bakıda bütün yollara heç bir məhdudiyyətin qoyulmayacağını bildirən Xalid Ələkbərov vətəndaşların istədikləri ünvanlara rahat gedə biləcəklərini vurğulayıb. Qeyd edib ki, ictimai nəqliyyat Avropa Oyunları zamanı əvvəlki rejimdə fəaliyyət göstərəcək. Parkinq vərəqəsi olmayan vətəndaşlara avtomobillərini qadağan olunan yerlərdə saxlamamaları məsləhət görülür. Həmin avtomobillər evakuatorlar vasitəsilə cərimə meydançalarına aparılacaq.

Şöbə müdiri qeyd edib ki, parkinq icazəsi vərəqələrini əldə etmək üçün vətəndaşlar müvafiq mənzil kommunal istismar sahələrinə müraciət etməlidirlər. Onlar şəxsiyyət vəsiqəsinin, avtomobili təsdiq edən texniki pasportun surəti və yaşayış yerindən arayış təqdim etməklə bu vərəqələrə sahib ola bilərlər.

Xüsusi hazırlanmış parkinq icazəsi vərəqələrinin avtomobillərin ön şüşəsinə yapışdırılacağını bildirən Xalid Ələkbərov həmin vərəqə itdikdə və zədələndikdə yenisi ilə əvəz olunmayacağını diqqətə çatdırıb. Şöbə müdiri deyib: "Həmin vərəqələrə Bakı Şəhər Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları nəzarət edəcəklər. İdman obyektlərinin ətrafı xüsusi zonalar bölünüb. Həmin zonalara ayrıca giriş-çıxış məntəqələri var. Bu ərazilərdə xüsusi nişanlar quraşdırılacaq. Hər bir idman obyekti nömrələnib. Parkinq icazəsi vərəqəsində göstərilən nömrə obyektin nömrəsi ilə üst-üstə düşmədikdə həmin avtomobillər ərazidən uzaqlaşdırılacaq".

Yol kənarında avtomobillərin parkinq edilməsinin qanunsuz olduğunu bildirən şöbə müdiri ilk Avropa Oyunları ərəfəsində qanunu pozan vətəndaşlara böyük məbləğdə cərimələrin tətbiq ediləcəyini diqqətə çatdırıb.

Bütün parkinq ərazilərinin sxemi Bakı Şəhər İcra Hakimiyyəti və "Bakı-2015" ilk Avropa Oyunlarının saytında yerləşdirilib.



*BAŞ REDAKTOR*
Rasif İman oğlu TAHİROV

ÜNVANIMIZ:
AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 22
TELEFONLARIMIZ
Baş redaktor (050) 670-33-76,
Redaktor (070) 252-39-02

*Qəzetin təsisçisi*
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 43